# "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1132-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1132-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 17-ci maddəsinin birinci və ikinci cümlələrində, 54-7-ci maddəsinin birinci cümləsində, 54-8-ci və 78-2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 54-2-ci maddəsində, 54-5-ci maddəsinin ikinci cümləsində, 54-6-cı və 73-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Əsasnamənin 11-2-ci və 45-2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;

1.4. həmin Əsasnamənin 78-3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;

1.5. həmin Əsasnamənin 54-7-ci maddəsinin birinci cümləsində və 54-8-ci maddəsində "vəzifəli şəxs" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin vəzifəli şəxsləri nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 54-5-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi orqanlarının vəzifəli şəxsləri üçün elmi dərəcəyə görə əlavələrin miqdarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Əsasnamənin 54-6-cı maddəsinə uyğun olaraq, yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan vergi orqanının vəzifəli şəxsinə və onun ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi qaydasını və məbləğini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin Əsasnamənin 73-1-ci maddəsinə uyğun olaraq, vergi orqanlarının vəzifəli şəxslərinin xidmət illərinin hesablanması qaydasını dörd ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1132-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üç ay müddətində:

3.1. "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 11-2-ci maddəsinə uyğun olaraq, vergi orqanlarında staj və sınaq keçmə qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. həmin Əsasnamənin 45-2-ci maddəsinə uyğun olaraq, vergi orqanlarının vəzifəli şəxslərinin həvəsləndirmə qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 106 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 89 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. ikinci abzas 2.1-ci bənd hesab edilsin və həmin bənddən ", 12-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində, ikinci hissəsinin 2-ci bəndində və üçüncü hissəsində" sözləri çıxarılsın;

4.2. üçüncü abzas 2.3-cü bənd hesab olunsun və aşağıdakı məzmunda 2.2-ci bənd əlavə edilsin:

"2.2. həmin Qanunun 12-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində, ikinci hissəsinin 2-ci bəndində və üçüncü hissəsində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, Dövlət Gömrük Komitəsi, Ədliyyə Nazirliyi və Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyi (Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinə münasibətdə) nəzərdə tutulur;".

5. "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 476 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci hissə ləğv edilsin;

5.2. 3-cü hissə üzrə:

5.2.1. 3.1-ci bənddə "17-ci maddəsində" sözləri "17-ci maddəsinin birinci və ikinci cümlələrində" sözləri ilə, "axırıncı abzasında, 74-cü maddəsinin birinci cümləsində və 78-ci" sözləri "on birinci abzasında, 54-7-ci maddəsinin birinci cümləsində, 54-8-ci maddəsində, 78-ci maddəsinin birinci cümləsində və 78-2-ci" sözləri ilə əvəz edilsin;

5.2.2. 3.2-ci bənddə "6-cı" sözü "6-cı maddəsinin birinci cümləsində" sözləri ilə, "və 55-ci maddəsinin birinci hissəsində (birinci halda)" sözləri ", 54-2-ci maddəsində, 54-5-ci maddəsinin ikinci cümləsində, 54-6-cı maddəsində, 55-ci maddəsinin birinci hissəsində (birinci halda) və 73-1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

5.2.3. 3.3-cü bənddə "76-cı maddəsində" sözlərindən sonra ", 78-3-cü maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin, həmin bənddə "38-ci maddəsində" sözləri "38-ci maddəsinin ikinci cümləsində" sözləri ilə əvəz olunsun və həmin bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

5.2.4. aşağıdakı məzmunda 3.3-1-ci və 3.5-ci bəndlər əlavə edilsin:

"3.3-1. həmin Əsasnamənin 11-2-ci və 45-2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;";

"3.5. həmin Əsasnamənin 16-cı maddəsinin ikinci hissəsində, 54-7-ci maddəsinin birinci cümləsində, 54-8-ci maddəsində və 78-ci maddəsinin birinci cümləsində "vəzifəli şəxs" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin vəzifəli şəxsləri nəzərdə tutulur.";

5.2.5. 3.4-cü bənd ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 aprel tarixli 31 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"nin 1.7.3-cü yarımbəndində "xidməti intizamı bir dəfə kobud şəkildə pozması və ya xidməti vəzifələrini müntəzəm surətdə yerinə yetirməməsi səbəbindən" sözləri "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 75-ci maddəsinin 5-ci bəndi ilə" sözləri ilə əvəz edilsin.

7. "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 17-ci maddəsinə münasibətdə bu Fərmanın 1.1-ci bəndi, 5.2.1-ci və 5.2.5-ci yarımbəndləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydası ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2024-cü il*

Azərbaycan. - 2024.- 21 may, № 105.- S.3.